

# Azərbaycanın milli maraq və mənafelərini layiqincə təmin edən siyasət

***Pandemiya dövrünün çətinliklərinə baxmayaraq, Prezident İlham Əliyev respublikanın yüksəlişinə xidmət edən siyasi kursunu böyük qətiyyətlə, müdrikliklə, uzaqgörənliklə həyata keçirir.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "Vətəndaşlarımız nizam-intizama ciddi riayət etsələr, pandemiyanı nəzarətdə saxlamağa və ona qalib gəlməyə müvəffəq olacağıq".

Bu gün bəşəriyyət ən bəlalı xəstəlikdən birini COVİD-19 pandemiyasını yaşayır. Yer kürəsinin əhalisi bu virusa yoluxmamaq üçün əlindən gələni edir. Lakin bir həqiqət var ki, ona tək şəkildə qalib gəlmək mümkün deyil. Bu baxımdan bütün dövlətlər öz gücünü birləşdirməli və birgə mübarizə aparmalıdır. Dövlətlər içərisində xalqın da birləşməsi, birgə mübarizə aparması pandemiyaya qalib gəlməyin əsas şərtlərindəndir. Dünyada COVİD-19 pandemiyasının başlanmasından etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır. Pandemiyanın qeydə alındığı ilk gündən ölkə daxilində Prezidentimizin irəli sürdüyü "Biz birlikdə güclüyük" çağırışına bütün xalqımız qoşuldu. Bu yönümdə ölkə başçısı tərəfindən görülmüş işlərin miqyası böyüdü. 6 iyul 2020-ci il tarixdə Azərbaycan Televiziyası, İctimai Televiziya və "Xəzər" Televiziyasına verdiyi müsahibəsində Prezident İlham Əliyev pandemiya dövründə respublikamızda görülmüş işlərdən geniş söz açmışdır. Pandemiyanın başlandığı gündən etibarən Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin səhiyyə sisteminin möhkəmləndirilməsi işində ən vacib məsələlərdən biri yeni xəstəxanaların tikilməsi, köhnə xəstəxanaların isə əsaslı təmiri və bərpası olmuşdur. Hazırda ölkənin 45 xəstəxanasında koronavirus xəstələri müalicə alırlar ki, bu xəstəxanaların 36-sı Prezident İlham Əliyevin sərəncamı ilə son dövrlərdə inşa edilmişdir. Əksəriyyəti bölgələrdə yerləşdirilən xəstəxanalar regional inkişaf proqramı çərçivəsində tikilib və bu gün ən yüksək standartlara cavab verir.Əgər ölkə rəhbərinin göstərişi ilə ölkəmizin hər bir yerində müasir xəstəxanalar tikilməsəydi bu gün biz koronavirusla mübarizədə çox böyük problemlərlə üz-üzə qala bilərdik. Bu baxımdan modul tipli xəstəxanaların yaradılması böyük əhəmiyyət kəsb edir. İlin əvvəlindən ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanıldı ki, onlardan beş modul tipli xəstəxana artıq fəaliyyətdədir. Bunlardan ikisi Bakıda, biri Sumqayıtda, biri Gəncədə, biri Abşeron rayonunda artıq fəaliyyət göstərir və beşinin də tikintisi davam etdirilir. Bu xəstəxanaların tez bir zamanda inşa edilməsi onu göstərir ki, biz hətta seytnot vəziyyətdə lazımi addımları ata bilərik. Modul tipli xəstəxanalarda palatalar, laboratoriya, diaqnostika mərkəzi təsis edilmiş, həkimlər üçün bütün lazımi şərait yaradılmışdır. Xəstəliyə yoluxmanın tempi yüksəkdir, amma vəziyyət nəzarət altındadır. Əhalisinin sayı Azərbaycanla müqayisə olunacaq səhiyyə sistemləri nümunəvi hesab olunan bir sıra qabaqcıl ölkələrdə yoluxanların sayı 60-70 min, ölənlərin sayı isə on minlərlə ölçülür. Bu o deməkdir ki, heç bir ölkə koronavirusa yoluxmaqdan sığortalanmış deyil. Prezidentin çıxışında qeyd etdiyi kimi, "Pandemiya dövründə xüsusi qaydalara riayət olunmalıdır. Hüquq mühafizə orqanları qaydalara əməl olunmasına ciddi nəzarət edirlər. Vətəndaşlarımız nizam-intizama ciddi riayət etsələr, pandemiyanı nəzarətdə saxlamağa və ona qalib gəlməyə müvəffəq olacağıq". Dövlət tərəfindən həyata keçirilən tədbirlər regionlarda da ardıcıl davam etdirilir. Qəbələ Rayon İcra Hakimiyyətində yaradılmış Operativ Qərargah tərəfindən təşkil edilmiş mobil qruplar xüsusi karantin rejimi ilə əlaqədar müntəzəm olaraq təbliğat işləri aparırlar. Biz inanırıq ki, birlikdə mübarizə apararaq pandemiyaya qalib gələcəyik.

**Azərbaycan Prezidentinin liderlik missiyası**

Koronavirus insanların həyatını təhlükə altında qoyan ciddi sağlamlıq problemləri yaratmaqla bərabər, mənfi fəsadları hələ uzun müddət hiss olunacaq sarsıdıcı qlobal sosial-iqtisadi və humanitar təhlükələr yaradıb. Yaxın dövrlər üçün üfüqdə ümidverici heç nə görünmür. Ən inkişaf etmiş ölkələr belə bu təhlükənin qarşısında aciz durumda qalıblar.

Bu qlobal problem bir sıra şərtləri diktə edir ki, onlardan biri də virusla mübarizədə beynəlxalq həmrəylikdir. Təəssüf ki, bu günə kimi beynəlxalq münasibətlər sistemində BMT və onun əsas qurumları olan Baş Assambleya və Təhlükəsizlik Şurası bu məsələdə ortaya mövqe qoya bilməyiblər, dünyanın aparıcı dövlətləri qlobal liderlik əvəzinə geosiyasi rəqabət və özünütəcridə kökləniblər. Böyük dövlətlər və beynəlxalq təşkilatlardan qlobal liderlik gözlənilsə də, bu baş vermədi. Daha çox özünütəcrid, milli eqoizm xarakteri daşıyan və fraqmentar addımlar atıldı. BMT Təhlükəsizlik Şurasının xüsusi iclaslarının çağırılması təşəbbüsü fikir ayrılığına görə baş tutmadı. BMT Baş Assambleyası çərçivəsində bir neçə qətnamə layihəsi irəli sürülsə də, onların da əksəriyyəti uğurla nəticələnmədi və yalnız deklarativ mətnlərlə yekunlaşdı.

Bu gün müharibə ilə müqayisə olunan COVID-19 pandemiyası şəraitində özünütəcrid və fraqmentar xarakter daşıyan tədbirlərlə yanaşı, qlobal həmrəyliyə və qlobal baxışa böyük ehtiyac var.

Təsadüfi deyil ki, dünyada COVID-19 pandemiyasının başlanmasından etibarən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır. Ən əsası ilk gündən koronavirusla mübarizədə beynəlxalq həmrəyliyin vacibliyini bəyan edən Prezident İlham Əliyev bu məsələdə də qlobal liderlik missiyasını öz üzərinə götürüb.

**AzərTAc**

# Qlobal təhlükəyə qarşı qlobal mübarizə çağırışı

Bəşəriyyətin başı üzərini almış koronavirus pandemiyasının təhlükəsi dünya müharibələri ilə müqayisə olunur. Hadisələrin gedişi də göstərir ki, belə gərgin və narahat bir vaxtda özünütəcrid tədbirləri əvəzinə qlobal həmrəyliyə və qlobal baxışa böyük ehtiyac var. Dünyada COVID-19 pandemiyasının başlanmasından etibarən Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Türk Şurası və Qoşulmama Hərəkatının videokonfrans formatında keçirilən zirvə görüşləri bu baxımdan dünyada nümunə göstərilir.

BMT Nizamnaməsinə əsasən, BMT Baş Assambleyası ehtiyac duyulduğu təqdirdə Xüsusi sessiyalar keçirə bilər. Xüsusi sessiyalar BMT Təhlükəsizlik Şurasının və ya BMT-yə üzv ölkələrin çox hissəsinin müraciəti əsasında BMT-nin Baş katibi tərəfindən çağırılmalıdır. Prezident İlham Əliyevin bu səlahiyyətdən istifadə edərək, bu il mayın 4-də Qoşulmama Hərəkatına üzv dövlətlərin təmas qrupunun videoformat şəklində keçirilən Zirvə görüşündə səsləndirdiyi pandemiyaya qarşı mübarizə məqsədi ilə BMT Baş Məclisinin xüsusi sessiyasının çağırılması təşəbbüsü dünyada çox böyük rezonansa səbəb olmuşdur. Artıq dünyanın 130- dan çox ölkəsi bu təklifi dəstəkləyir. Həmin dövlətlər sırasında Qoşulmama Hərəkatının 120 üzvü ilə yanaşı, Avropa İttifaqının, Asiyanın, Afrikanın və Latın Amerikasının da aparıcı dövlətləri vardır. Qlobal təhdid mənbəyinə - COVID-19 pandemiyasına qarşı beynəlxalq səviyyədə səylərin birləşdirilməsi və gücləndirilməsi məqsədi ilə nafeyinə xidmət edən bu unikal təşəbbüsə qarşı çıxış edən yeganə dövlət məhz işğalçı, destruktiv davranışı ilə özü-özünü artıq dünyada biabır etmiş Ermənistan olmuşdur.

Bütün dünya COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünü rüsvay etdi. Bununla da Ermənistan dövləti iyrənc siyasətini ortaya qoymuş və dünya miqyasında özünü rüsvay etmişdir. Əslində, faşizmi və terrorizmi dövlət siyasəti səviyyəsinə qaldıran bir "psevdodövlət"in belə davranışı təəccüb doğurmur. Deməli, Ermənistan dünyanın yeganə ölkəsidir ki, COVID-19-un yanında yer aldı və onun müttəfiqi kimi çıxış etdi. Eyni məntiqlə analiz etdikdə, Ermənistanın artıq 500 mindən artıq insanın pandemiyanın qurbanı olmasında birbaşa olmasa da, dolayısı ilə məsuliyyəti yaranır. Ermənistanın bu antibəşəri davranışına postpandemiya dövründə siyasi və hüquqi qiymət verilməsi məsələsi də olduqca vacibdir.

Bu gün dünyada ən böyük və ən nüfuzlu beynəlxalq təşkilat BMT-dir, Azərbaycanın isə BMT-ni idarə etmək təcrübəsi var, ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib və Təhlükəsizlik Şurasına sədrlik edib. Belə bir təşəbbüsün irəli sürülməsi və dəstəklənməsinə nail olunması BMT-nin fəaliyyətinə dərindən bələd olan Azərbaycanın və onun siyasi rəhbərliyinin məntiqi, düşünülmüş addımı kimi qiymətləndirilməlidir.

Burada bir məqamın da üzərində xüsusi olaraq dayanmağa dəyər. Prezident İlham Əliyevin son təşəbbüsünə dünyanın məlum reaksiyası bir daha belə bir həqiqəti sübut etdi ki, Azərbaycan dünya miqyasında elə də böyük

(Ardı 3-cü səhifədə).